*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 306-310*

https://doi.org/10.62837/2024.10.306

**AYSUN HƏŞIMI**
**ADPU**

# HÜSEYN CAVİDİN "İBLİS" FACİƏSİNİN TƏDRİSİNDƏ MOTİVASİYA ÜSULLARI

## XÜLASƏ

***Açar sözlər: Hüseyn Cavid, iblis, mələk, insan, mənəvi dəyər, fəal təlim, texnologiya.***

Bu məqalə Azərbaycan ədəbiyyatında mühüm yer tutan Hüseyn Cavidin "İblis" faciəsinin tədris metodikasına dair bir neçə nümunəvi yanaşmanı əhatə edir. Əsərin tarixi və fəlsəfi əhəmiyyətindən bəhs edilərək, onun Birinci Dünya müharibəsi dövründə yazılması və müharibə əleyhinə humanist ideyalarının vurğulanması müəllimlər üçün diqqətəlayiq pedaqoji prinsiplər kimi qeyd olunur.

Məqalədə müəllimlərin şagirdləri əsəri dərindən anlamağa və motivasiyalarını artırmağa kömək edəcək interaktiv üsullar və texnoloji vasitələrdən istifadəsi təklif olunur.

**Hashımı Aysun**
**Master's student of ASPU**

# MOTIVATION METHODS IN TEACHING HUSSEIN JAVID'S "İNSAN" TRAGEDY

## SUMMARY

***Keywords: Hussain Javid, devil, angel, human, moral value, active learning, technology.***

This article covers several exemplary approaches to the teaching methodology of Huseyn Javid's "Iblis" tragedy, which occupies an important place in Azerbaijani literature. Talking about the historical and philosophical significance of the work, its writing during the First World War and the emphasis on anti-war humanist ideas are noted as noteworthy pedagogical principles for teachers.

The article suggests that teachers use interactive methods and technological tools that will help their students to understand the work in depth and increase their motivation.

**Хашеми Айсун**
**Мастер АГПУ**

# МЕТОДЫ МОТИВАЦИИ В ПРЕПОДАВАНИИ ТРАГЕДИИ ХУСЕЙНА ДЖАВИДА «İNSAN »

## КРАТКОЕ СОДЕРЖАНИЕ

***Ключевые слова: Хусейн Джавид, дьявол, ангел, человек, моральные ценности, активное обучение, технологии.***

В данной статье рассматриваются несколько образцовых подходов к методике преподавания трагедии Гусейна Джавида «Иблис», занимающей

важное место в азербайджанской литературе. Говоря об историко-философском значении произведения, его написание в годы Первой мировой войны и акцент на антивоенных гуманистических идеях отмечаются как заслуживающие внимания педагогические принципы для учителей. В статье предлагается, чтобы преподаватели использовали интерактивные методы и технологические средства, которые помогут их ученикам глубже понять работу и повысят их мотивацию.

Azərbaycan ədəbiyyatının sürətlə dəyişmə dövrünü yaşadığı XIX əsr və XX əsrin əvvəllərində bir çox böyük yazıçı və şairlər bu ədəbiyyatın inkişafına mühüm töhfələr vermişlər. 1800-cü illərin əvvəllərindən başlayaraq rus ədəbiyyatının təsiri ilə yanaşı, Azərbaycan ziyalılarının Anadolu ilə əlaqələri də Azərbaycan ədəbiyyatının inkişafına bilavasitə təsir göstərmişdir. Azərbaycan bədii ədəbiyyatında və fəlsəfi fikir tarixində özünə əbədiyyəti təmin etmiş ulu söz sənətkarımız Hüseyn Cavidin yaradıcılığı elə ədəbi qaynaqlarımızdandır ki, buraya hər dəfə müraciət edəndə sənətkar dühasının yeni-yeni möcüzələri qarşısında heyrətlənməli olur, özümüzü bu qüdrətli sənətkarın romantik ecazkar aləmində hiss edirik. Cəlal Abdullayev və Alqış Həsənoğlunun "Hüseyn Cavid" monoqrafiyasında bu məsələyə belə münasibət bildirilir: "*Bəşər tarixində baş vermiş faciələr şairi yaradıcılığının ilk dövrlərindən başlayaraq son əsərlərinə qədər daim düşündürmüşdür. H.Cavid əzənlə əzilənlər arasındakı barışmaz ziddiyyətləri erkən yaşlarında duymuş, ədalətsizliyi, istismarı, zorakılığı,bir sözlə, insanın həyatını zəhərləyən hər şeyi pisləmiş, tənqid etmişdir"*[1, s.3 ]Mənzum dramaturgiyamızın dünya ədəbiyyatının şedevrləri sırasında vüqarla dayanmağa layiq əsərlərindən olan "İblis" faciəsi ədibin yuxarıdakı fikirlərimizi təsdiq edən əsərlərindən biridir. ."İblis" faciəsinin Birinci Dünya müharibəsi illərində yazıya alınması,, H.Cavidin burada bir filosof və humanist insan kimi düşüncələrinin açılması,, ədalətsiz müharibələrə, müharibə qızışdırıcılarına nifrət hissi oyatması ideyaları ətrafında mövzunun tədrisinə ayrəlmış bir neçə saat vaxt ərzində müəllim son dərəcə məsuliyyətli olmalı, intensiv metodlardan istifadə etməlidir. Mövzunun tədrisi ərəfəsində çalışmaq lazımdır ki, şagirdlər əsəri müstəqil oxusunlar. Əsərin dilində çətin anlaşılan ərəb və fars sözləri, osmanlı-türk şivəsi tələb edir ki, şagirdlərin oxusuna müəllim rəhbərlik etsin, əsərdəki əsas fikri və müəllif qayəsini şagirdlərə çatdırmaqda yardımçı olsun. Yeni təlim vəzifələrinin tələbinə uyğun olaraq, hər bir şagirdin subyektiv rolunun artırılması üçün müəllim öz "drijorluq" məharətindən istifadə etməlidir. Problemin qoyuluşu, mövzunun dərki ətrafında sinif kollektivini səfərbər etməli, maraq doğuran üsul və vasitələrdən istifadə olunmalıdır. Burada haqqında bəhs olunan üsul və vasitələr kompüter imkanlarına malik olan məktəb və müəllimlər üçün əlverişlidir. Təqdim edəcəyimiz fraqmentlər elektron tədris imkanları olan məktəblərdə istifadə olunmaq üçün nəzərdə tutulsa da , ondan adi texniki təlim vasitələri şəraitində də faydalanmaq olar. XI sinifdə H. Cavidin

“İblis” faciəsinin təhlili üçün nəzərdə tutulmuş dərs saatları və ya dərsdənkənar məşğələlərdə tədris məqsədilə on-on iki fraqmentdən ibarət təqdimat nəzərdə tutulur. İlk qeydlər şagirdlərin tanışlığı və problemə cəlb olunçası məqsədi daşıyır. Bu,ənənəvi təlimdə, təxminən, "müəllimin şərhi"nə uyğun gəlir. Birinci təqdimat məzmunca əsərin təhlili üçün giriş məqsədi daşıyır. Odur ki, həmin fraqmenti, təxminən, belə vermək olar: H.Cavid bütün yaradıcılığı boyu bəşəri və milli səadət, sülh və əmin-amanlıq tərəfdarı olmuş, humanist və romantik bir şair kimi müharibələri və onu törədənləri insansevərliyə, bəşəriyyətin tərəqqisinə, yüksək ideallara səsləmişdir. "İblis" ədibin həmin düşüncələrini əks etdirən və dünya ədəbiyyatının şah əsərləri ilə bir sırada duran romantik faciədir. İnteqrativ məqsədlə dramaturqun "Peyğəmbər" dramından götürülən aforizmlə fikri daha da qüvvətləndirmək olar:

*“Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.”*[2, s.48 ]

Bu epizodun nümayişi şagirdləri əsərdə qoyulmuş problemin tədqiqinə yönəldir. Əlavə təsir effekti yaratmaq üçün şagirdlərin diqqətini əsərdə ideya daşıyıcısı olan Vasifin dilindəngötürülmüş, xalqımızın bugünkü durumu ilə yaxından səsləşən 2-ci fraqmentə cəlb edilir. Həmin fraqment 2-ci təqdimat sayılır və şagirdlərin fikri fəallığını gücləndirmək məqsədi daşıyan sualdan ibarətdir: H.Cavidin vətəndaş və milli qayəsini əks etdirən aşağıdakı sözlər "İblis" faciəsində hansı qəhrəmanın dilindəndir?

*“Turana qılıncdan daha kəskin ulu qüvvət,*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət...”*[2, s.230 ]

Şübhə yoxdur ki, əsəri diqqətlə oxumuş şagird üçün bu suala cavab vermək o qədər də çətin deyil. “*Dərsdə şagirdlər qarşısında problemli sual qoyulur: Arifin mənəvi iflasında, faciəsində günahkar kimdir?”*[3, s.284 ] Müəllim problemin açılışına cəlb olunmuş şagirdlərə Vasifin və Arifin taleyi, müharibəninyaratdığı vəhşətlər və s. haqqında düşündüklərini deməyə, onu Azərbaycanın müasir durumu ilə - torpaqlarımızın xain və nankor ermənilər tərəfindən işğalı ilə əlaqələndirməyə şərait yaradır. Müharibənin dəhşətlərini və ağrılarını daşıyan üç gəncin - Arifin, Vasifin və kiçik zabitin Vətən, onun tarixi və taleyi haqqındakı düşünçələri ilə şagirdlər H.Cavidin Osmanlı dövlətinin tarixi, Birinci Dünya müharibəsi, Türkiyə Respublikası və türk xalqı barədə düşündüklərinin yeni bir qatı ilə tanış olur, yuxarıdakı sözlərin isə Vasifə məxsus olduğunu xatırlayırlar. Müəllim həmin debatın yekunu kimi şagirdlərə Türkiyə-Azərbaycan tarixi ilişkiləri ilə bağlı müstəqil tapşırıqlar da verə bilər. Bunun ardınca şagird-müəllim qənaətlərini möhkəmləndirən 3-cü təqdimata keçilir. Bu, sadə bir quruluşdur və kompüterin Power Point proqramının imkanları sayəsində müxtəlif şəkildə nümayiş etdirilə bilər. Slaydın bir tərəfində qlobus üzərində "ürmhəbia" şəklində hərflər dağıdılaraq anaqram tərtib edir, ondan aşağıda - sağda isə əsərdəki obrazların - Arif, Vasif, Rəna, Elxan, Yaralı

zabit, Ərəb zabiti, İbn Yəminin adlarını alt-alta nümayiş etdirilir. Qlobusun üzərindəki sözlə burada adları çəkilən obrazlar arasında əlaqələri müəyyənləşdirmək üçün səhifənin əvvəlində belə bir sual qoyulmuşdur: "Aşağıdakı anaqramda verilmiş söz "İblis" faciəsindəki obrazların hər birinin taleyində özünəməxsus izlər qoymuşdur. Həmin sözü tapın". Yenidən şagirdlərin fəallığı artır, hər qrup özünəməxsus fikirlərlə əsərdə qoyulmuş ideyanı dərk etməyə çalışır. Sonda müəllim kompüterin köməyilə qlobusun üzərindəki hərflərə bir-bir toxunur, nəticədə lövhəciyin sağ tərəfində "müharibə" sözü alınır. Sonrakı təhlil elementi - 4-cü təqdimat klaster (şaxələndirmə) şəklindədir. Səhifənin əvvəlində belə bir tapşırıq verilmişdir: "*Əsərdəki ideyanın açılmasında surətlərin rolunu şaxələr üzrə müəyyənləşdirin*"[4, s.157]. Klaster mərkəzdə "İblis" sözü yazılmış səkkiz şaxədən ibarətdir. Onun qütbləri aşağıdakı kimidir: 1. Arif-İblis-Mələk; 2.Rəna-İblis-Xavər; 3. Papas, xaxam, şeyx-İblis-İbn Yəmin; 4. Elxan-İblis-Mələk. Obrazlar arasında bağlılığı müəyyənləşdirmək şagirdlərdən tələb olunur. Ola bilsin ki, şagirdlər bu cür qütbləşməyə əks arqumentlər irəli sürsünlər. Müəllimin rəhbərliyi altında polemikaya belə meydan açılması əsərin təhlili üçün rəngarəng fikirlərin üzə çıxarılması deməkdir.Bu isə dövrümüzdə şəxsiyyətyönümlü təhsilin tələblərindən biridir. Elektron imkanları olmayan məktəblərdə həmin sxemləri sadə əyaniliklə də nümayiş etdirmək olar. Bu sxem şagirdlərin İblis obrazı, iblislik və insan təbiətinin xeyirlə şərin daim mübarizə meydanı olması, müharibələr, onları doğuran səbəblər, varlanmaq ehtirasları və s. haqqında mühakimələrinə geniş imkan yaradır. Məsələn, İblisi qara, Arifi qırmızı, Elxan və Vasifi yaşıl, Rəna, Xavər və Mələyi palıdı, din xadimləri və İbn Yəmin olan dairələri isə sarı rəngdə verməklə şagirdləri obrazların rəng simvolikası ilə qruplaşdırılması üzərində də düşündürür. Klaster (şaxələndirmə) üsulu əsasında obrazların aşağıdakı kimi əlaqələndirilməsi səbəblərini izah edin: **İblis**-Arif- Mələk-müharibə, onun dəhşətlərinə münasibət; Arif-**İblis**-Xavər-ailədaxili münasibətlər, məhəbbətə ikili yanaşma; Rəna-Arif-Vasif - **İblis** - insanı filosofdan qatilə çevirən məhdudluq; Rəna - Xavər - Mələk - humanizm, zəriflikdən doğan həssaslıq; Vasif - Elxan - Vətən, onun taleyi ilə bağlılıq; İbn Yəmin - papas, xaxam - **İblis** - klasterin və əsərin qara və tutqun rəngləri və s. 6-cı təqdimat məktəblərimizdə geniş tətbiq edilən oyun-dərs modelinə uyğun olaraq düşünülmüşdür. "Kim kimdir?" əyləncəli teleoyununa bənzəyən həmin səhifəni bütövlükdə aşağıdakı kimi tərtib etməyi məqsədəuyğun hesab edilir:"Kim kimdir?"
1. Müharibələrin dəhşətlərindən bəşəriyyətə acıyan mövhumi obraz.
2. Filosof-qatil; 3.Qardaşlar; 4.Müharibə,qisas,qənimət; 5. Missionerlər.
Təxribatçılıq. Düşmənlərimizin kəmfürsətliyi; 6.Məhəbbət. Qadınlar. 7.Üç zabit. Tale oxşarlıqları və fərqlər; 8. Nəfs. İnsan iblisləşir.Burada səkkiz məqama diqqət cəlb olunmuşdur, lakin bu, nisbidir və çoxaldıla bilər.Başlıcası, hər bənd üzrə dərindən düşünməyə və fəal təlimə cəlb olunan şagirdlər müstəqil şəkildə öz fikirlərini əsərdən gətirdikləri faktlarla əsaslandıra bilərlər. 7-ci elektron səhifə də

oyun - dərs modelinə uyğundur. İblis obrazı əsərin müxtəlif yerlərində üzə çıxan mənfur təbiətini faciənin 4-cü pərdəsində açıq etiraf edir. İnteraktiv üsullar içərisində artıq özünü doğrultmuş "Spiral"da onun öz dili ilə açılmış sifətlərini şagirdlərin vasitəsilə yaratmağa çalışırıq. Bu zaman şagirdlər İblisin görüntülərini söylədikcə spiralın dolaylarına qeyd edirlər. Təxminən, aşağıdakı alınır: doqquzdolaqlı bir spiral və onun hər dolağında İblisin müvafiq görüntüsü - Abid, Rahib, Mürşid, Sultan, Cavan, Çoban, Papa, Qazi, Qoca. Solda icə böyük hərflərlə İblis sözü yazılır. Beləliklə, şagirdlər İblisin gəlişlərinin müvafiq yeri üzərində düşünməli olurlar. Bu da məzmunun yadda saxlanılmasına kömək edir. Məktəb təcrübəsi göstərir ki, düzgün tərtib olunmuş krossvordlar ədiblərin həyat və yaradıcılıqlarının öyrənilməsində xüsusi əhəmiyyətə malikdir. H.Cavidin yaradıcılığı üzərində qurulmuş krossvordu ədibin irsini dərindən öyrənməyə can atan şagirdləri çalışdırmaq məqsədi ilə tərtib etmişik. Yeri gəlmişkən, biz bu səhifəni şagirdlərə təqdim edərkən onların müstəqil işi üçün nəzərdə tutduğumuzu bildiririk. Bununla belə, şagirdlər tərəfindən tamamlanıb başa çatdırılmaqda çətinlik törədən xanaların doldurulmasında, daha dəqiq desək, krossvordun tam tərtibində onlara müəyyən qədər kömək də edirik. Hüseyn Cavidin "İblis" faciəsi, həm dramaturji, həm də fəlsəfi baxımdan, müasir təhsil metodları və elektron tədris vasitələri ilə yanaşı, şagirdlərin fəal iştirakını təmin edərək, ədəbiyyatın dərindən öyrənilməsinə və bəşəriyyətə dair müsbət ideyaların aşılanmasına böyük imkanlar yaradır.

## Ədəbiyyat

1. Abdullayev Cəlal, Həsənoğlu Alqış. Hüseyn Cavid, Bakı, Səda, 1997, 160 s.
2. Hüseyn Cavid.Əsərləri.Beş cilddə.IIIcild.Bakı,“Lider nəşriyyat”, 2005, 304 s
3. Həsənli Bilal. Ədəbiyyatın tədrisi metodikası. Bakı, “Müəllim nəşriyyatı”, 2016, 448 s
4. Həsənli Bilal, Nəcəfov Nəcəf. Ədəbiyyat, Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik,Bakı, “Əltərül nəşriyyatı”, 2004, 320 s.
5. http://www.huseyncavid.az/muzey/KonfransHC133.pdf

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
**Rəyçi: Razim Məmmədov filologiya üzrə fəlsəfə doktoru, dosent tərəfindən çapa tövsiyə olunmuşdur**